QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

SƏS

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

№ 076 (7486)

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

13 oktyabr 2026-cı il.
Qiyməti 1 manat

Tolerantlıq üzrə dünyada model

4

Biz yaxşı dost və tərəfdaşıq!

Prezident İlham Əliyevin Azərbaycanda rəsmi səfərdə olan Kamboca Krallığının Baş naziri Hun Manet ilə görüşü olub, mühüm sənədlər imzalanıb



2

Məktəbli forması, yoxsa?..

6

"Mənzil probleminin həlli gənclərin ailə qurmağa marağını artıra bilər"

5

Uşaqlar uşaqlığını sosial şəbəkələrdə yaşayır: valideynlər hansı təhlükəni nəzərdən qaçırırlar?

8

Həyata yalnız pəncərədən baxma!

5

Səhv düşəndə yerimiz

6

Kirpik qaynağının görünməyən üzü və ya mikroskopik təhlükə

7

Biz yaxşı dost və tərəfdaşıq!

Prezident İlham Əliyevin Azərbaycanda rəsmi səfərdə olan Kamboca Krallığının Baş naziri Hun Manet ilə görüşü olub, mühüm sənədlər imzalanıb



Oktyabrın 12-də Azərbaycan Prezidenti İlham Əliyevin Azərbaycanda rəsmi səfərdə olan Kamboca Krallığının Baş naziri Hun Manet ilə məhdud tərkibdə görüşü olub. Daha sonra Azərbaycan Respublikası ilə Kamboca Krallığı arasında imzalanmış sənədlərin Prezident İlham Əliyevin və Baş nazir Hun Manetin iştirakı ilə mübadiləsi mərasimi olub.

"Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi nəzdində ADA Universiteti ilə Kamboca Krallığının Xarici İşlər və Beynəlxalq Əməkdaşlıq Nazirliyinin Diplomatiya və Beynəlxalq Əlaqələr Milli İnstitutu arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu ADA Universitetinin rektoru Hafiz Paşayev və Kambocanın Diplomatiya və Beynəlxalq Əlaqələr Milli İnstitutunun prezidenti Fann Makara mübadilə etdilər. "Azərbaycan Respublikası Hökuməti ilə Kamboca Krallığı Hökuməti arasında gəlirlərə görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın, habelə vergi üstünlüklərindən sui-istifadənin qarşısının alınması haqqında Saziş"i Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov və Kambocanın ticarət naziri xanım Çam Nimul mübadilə etdilər.

"Azərbaycan Respublikası Hökuməti ilə Kamboca Krallığı Hökuməti arasında ticarət və iqtisadi əməkdaşlıq haqqında Çərçivə Sazişi"ni Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov və Kambocanın ticarət naziri xanım Çam Nimul mübadilə etdilər. Oktyabrın 12-də Azərbaycan Prezidenti İlham Əliyev və Kamboca Krallığının Baş naziri Hun Manet mətbuata bəyanatlarla çıxış ediblər. Əvvəlcə Azərbaycan Prezidenti bəyanatla çıxış edib.

Prezident İlham Əliyev öz bəyanatında qeyd edib ki, biz yaxşı dost və tərəfdaşıq. "Siz Azərbaycanda bir neçə gün keçirəcəksiniz və qarşıdakı günlərdə AQEM-in Zirvə görüşündə də iştirak edəcəksiniz. Sizin bu tədbirdə şəxsən iştirakınız bizim üçün böyük şərəfdir.

Həmçinin 12 il bundan əvvəl atanız, keçmiş Baş nazir, hazırda isə Senatın sədri ilə burada, Azərbaycanda keçirdiyim görüşü xatırlayıram. Bu, siyasətimizin davamıdır. Biz yaxşı dost və tərəfdaşıq. Beynəlxalq təşkilatlar çərçivəsində fəal əməkdaşlıq edir, bir-birimizi dəstəkləyirik. BMT, Qoşulmama Hərəkatı və AQEM çərçivəsində çox yaxşı siyasi əlaqələrimiz və fəal əməkdaşlığımız var. Bununla yanaşı, ikitərəfli müstəvidə təmaslarımızı intensivləşdirmək barədə də razılığa gəldik.

Əlbəttə, ticarət və sərmayə qoyuluşu sahələrində hansı işləri görə biləcəyimizi də müəyyənləşdirməliyik. Biz bu imkanları geniş müzakirə etdik, ticarət və investisiya əməkdaşlığımızın praktiki aspektləri ilə məşğul olacaq birgə işçi qrupu yaratdıq. Beləliklə, imkanlar çoxdur. Yeganə maneə məsafə ola bilər. Lakin müasir dünyada bu, böyük problem deyil. Digər məsələ məlumat çatışmazlığıdır və biz bu boşluğu aradan qaldırmalıyıq.

Ümid edirəm ki, bu gün Azərbaycanın və Kambocanın çoxsaylı şirkətlərinin iştirakı ilə keçirilən biznes forumu bir-birimizi, mövcud imkanları, iqtisadi və investisiya prioritetlərimizi daha yaxından tanımağa, sıx iqtisadi əməkdaşlığın qurulması yollarını müəyyənləşdirməyə kömək edəcək.

Ölkələrimiz arasında ticarət dövriyyəsi hələlik çox aşağı səviyyədədir. Lakin bir daha əminliyimi ifadə edirəm ki, Baş nazirin rəsmi səfərindən sonra həmin sahədə böyük canlanmanın şahidi olacağıq. Biz, həmçinin sənayenin müxtəlif sahələrində birgə istehsal müəssisələrinin yaradılması imkanlarını, turizm və təhsil sahələrində əməkdaşlıq məsələlərini müzakirə etdik. Sovet İttifaqı dövründə yüzlərlə kambocalı tələbə Azərbaycanda təhsil almışdır. Hesab edirik ki, bu ənənəni bərpa etməli və hər iki ölkədə qarşılıqlı təhsil imkanları yaratmalıyıq. Bu, həm də xalqlarımız arasında təmasların daha da genişlənməsinə kömək edəcək.

Nəqliyyat və rəqəmsal transformasiya da müzakirə etdiyimiz və prioritet hesab olunan sahələrdəndir. Həmçinin məmnunuq ki, öz səmərəliliyini sübut etmiş və Azərbaycan cəmiyyətində təqribən 100 faizlik müsbət qiymətləndirmə qazanmış "ASAN" dövlət xidmətləri sistemimiz Kambocada da maraq doğurur. Bu sistem artıq Azərbaycanın dostu olan bir çox ölkələrdə tətbiq edilir. Əminəm ki, bu da ikitərəfli münasibətlərimizə yaxşı töhfə verə bilər.

Parlamentlərarası əlaqələrdə də yüksək həmrəylik nümayiş etdirilir. Hər iki ölkədə parlamentlərarası dostluq qrupları fəaliyyət göstərir. Bundan başqa, Kambocanın dəstəyi ilə Azərbaycan parlamenti ASEAN Parlamentlərarası Assambleyasında müşahidəçi statusu əldə edib. Bu da Asiyanın, Cənub-Şərqi Asiyanın Azərbaycan üçün əhəmiyyət daşıdığını və xarici siyasətimizin prioritetlərindən biri olduğunu göstərir. Asiya və Avropa arasında yerləşən Azərbaycan, əlbəttə ki, bağlantıların təmin edilməsində öz rolunu oynayır.

Sonra Kambocanın Baş naziri bəyanatla çıxış edib.

-Təşəkkür edirəm, cənab Prezident.

İlk növbədə, nümayəndə heyətimiz adından göstərilən səmimi qonaqpərvərliyə, həmçinin AQEM-in Bakıda keçiriləcək Zirvə görüşündə iştirak etmək və bu gün Azərbaycana rəsmi səfərə gəlmək üçün dəvətə görə minnətdarlığımı bildirmək istərdim.

Cənab Prezidentin də qeyd etdiyi kimi, bundan əvvəl görüşümüz oldu. Biz ikitərəfli əməkdaşlığımızı inkişaf etdirmək üçün birgə fəaliyyət göstərə biləcəyimiz geniş məsələlər ətrafında fikir mübadiləsi apardıq. Bundan əlavə, ticarət, təhsil və digər perspektivli sahələrdə gələcək əməkdaşlığımız üçün zəmin yaradan üç saziş imzaladıq. Cənab Prezidentlə razıyam ki, ölkələrimiz arasında kommersiya və ticarət əlaqələri, həmçinin digər sahələrdə münasibətlər hələlik məhdud səviyyədədir. Ölkələrimiz arasında münasibətlərin 30 ildən artıq tarixi var. Hun Senin 2014-cü ildə Azərbaycana səfəri baş tutmuşdu və həmin səfər indiyədək davam edən əməkdaşlığımızın yol xəritəsini müəyyənləşdirmişdir.

Əminəm ki, bugünkü səfərimdən etibarən biz birgə səylərimizlə, məsələn, ticarət əlaqələri kimi sahələrdə əməkdaşlığımızı inkişaf etdirə biləcəyik. Biz ticarət əlaqələrimizin inkişafı istiqamətində konkret tədbirləri müəyyənləşdirəcək və həyata keçirəcək birgə ticarət işçi qrupunun yaradılmasını nəzərdə tutan çərçivə sazişinin hazırlanması barədə razılığa gəldik. Həmçinin müdafiə, təhlükəsizlik və təhsil sahələrində əməkdaşlıq məsələləri üzərində iş aparmış və bu məsələləri müzakirə etmişik.

Çoxtərəfli müstəvidə beynəlxalq platformalar çərçivəsində əməkdaşlığın gücləndirilməsinə dair ortaq öhdəliyimizə sadiqliyimizi bir daha təsdiqlədik. Kamboca əvvəllər də Azərbaycanın ASEAN-da müşahidəçi statusu əldə etmək və ASEAN ölkələri ilə əlaqələrini inkişaf etdirmək səylərini dəstəkləmişdir.

Hesab edirəm ki, dünyada vəziyyətin getdikcə mürəkkəbləşdiyi bir şəraitdə regionlar və ölkələr arasında qarşılıqlı fəaliyyət, xüsusilə beynəlxalq arenada daha böyük əhəmiyyət kəsb edir. Bu baxımdan Kambocanın və Azərbaycanın ikitərəfli əməkdaşlığı gücləndirmək əzmi çoxtərəfli müstəvidə qarşılıqlı fəaliyyətimizin inkişafına da töhfə verəcəkdir.

Daha sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın adından Kamboca Krallığının Baş naziri Hun Manetin və birinci xanım Piç Çanmoninin şərəfinə rəsmi nahar verilib.

Rəsmi xronika

Oktyabrın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyası Çeçenistan Respublikasının başçısı Ramzan Kadırovu qəbul edib.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rusiya Federasiyası Çeçenistan Respublikasının başçısı Ramzan Kadırov oktyabrın 10-da "Bakı Ağ Şəhər"də olublar.

***

Oktyabrın 10-da Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 12-də İran İslam Respublikasının daxili işlər naziri İsgəndər Momenini qəbul edib.

Azərbaycanın hər bir uğurunda YAP-ın payı və rolu var

Azərbaycanda müasir dövrün tələblərinə, yeniliklərinə uyğun olaraq fəaliyyət göstərən yeganə siyasi partiya Yeni Azərbaycan Partiyasıdır. YAP yarandığı gündən sağlam, xalqın maraqlarına, dövlətin mənafeynə uyğun fəaliyyət göstərib. Bu baxımdan da xalqın inam və etimadını qazanıb. Ölkəmizdə keçirilən bütün seçkilərdə YAP-ın xalqın böyük dəstəyini qazanması möhkəm təmələ əsaslanan siyasətə, xalq-iqtidar birliyinin möhkəmliyinə əsaslanır. Tarixə qısa nəzər salsaq, məlum olar ki, Yeni Azərbaycan Partiyası 1993-cü ildən bu günə qədər keçirilən prezident, parlament, bələdiyyə seçkilərində uğur qazanmasını əsas səbəbi xalqın Ulu Öndər Heydər Əliyev siyasətinə bağlı olması, Prezident İlham Əliyevin xeyirli, gərəkli fəaliyyətinə yüksək qiymət verməsidir. Haqlı olaraq Yeni Azərbaycan Partiyasının qurucusu, xalqımızın xilaskarı Ulu Öndərimiz Heydər Əliyevin "Yeni Azərbaycan Partiyası dünənin, bu günün və gələcəyin partiyasıdır" deyə bildirmişdir.

YAP tarixi uğurlarını yeni dövrə uyğun davam etdirir

Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev bildirir ki, əməlimiz, işlərimiz, verilən sözlərə sadiqliyimiz Yeni Azərbaycan Partiyasının nüfuzunu artırır, Azərbaycanın siyasi səhnəsində yeganə ciddi siyasi qüvvəyə çevirir. Yaranandan cəmi 6 ay sonra iqtidar partiyasına çevrilən YAP dövlətə, xalqa xidmət missiyasını Azərbaycanın davamlı inkişafına, əhalinin sosial müdafiəsinin daha da yaxşılaşdırılmasına verdiyi töhfələri ilə nümayiş etdirir.

2020-ci il Vətən Müharibəsində qazanılan möhtəşəm hərbi qələbədən sonra regionda yaranan yeni reallıqlara uyğun olaraq YAP fəaliyyətini daha dinamik və mütərəqqi formalara əsaslanan siyasət üzərində qurur. 2021-ci il martın 5-də keçirilən YAP-ın VII Qurultaydan sonra YAP Mərkəzi Aparatının yeni strukturu formalaşdırılmış, həmçinin Nizamnamənin tələblərinə əsasən, respublikanın 84 rayon və şəhərini əhatə edən yerli təşkilat aparatlarının yenidən formalaşdırılması ilə əlaqədar sistemli tədbirlər həyata keçirilmişdir. Müsbət dəyişikliklər, həyata keçirilən yeniliklər partiyanın gücünün artmasına, beynəlxalq əlaqələrinin daha da genişlənməsinə təkan olub. Uğurlu siyasətin müsbət nəticəsi olaraq partiyaya axın daha da artmışdır. Sadəcə bir faktı qeyd etmək lazımdır ki, VII Qurultaydan ötən dövr ərzində 392 yeni ərazi partiya təşkilatı yaradılmışdır. 2021-ci ilin 5 mart tarixindən 2026-cı ilin 1 oktyabr tarixinədək partiya sıralarına 95 379 nəfər yeni üzv qəbul edilmişdir. Yeni qəbul olunanların 58 351 nəfərini (61,2%) qadınlar, 32 261 (33,8%) nəfərini isə 18-29 yaşlı gənclər təşkil etmişdir. YAP üzvlərinin uçot sistemində tam dəqiqliyin təmin edilməsi və məlumatlara nəzarətin gücləndirilməsi məqsədilə 2023-cü ilin mart ayından proqram təminatı hazırlanıb istifadəyə verilmişdir. 2026-cı ilin 1 oktyabr tarixinə 4953 ərazi partiya təşkilatı üzrə 769 811 nəfər partiya üzvü uçota alınmışdır ki, onların 398 568 nəfərini (51,8%) qadınlar, 43 379 nəfərini (5,6%) isə 18-29 yaşlı gənclər təşkil edir.

Ümumilikdə onu qeyd etmək olar ki, Yeni Azərbaycan Partiyası ötən 5 il ərzində böyük uğurlara, zəfərlərə imza atıb, nailiyyətlər əldə edib. Bunu partiyanın VIII Qurultayında aparılan müzakirələr və qəbul edilən qərarlar da təsdiq edir. Təbii ki, uzun illər yaddaşlardan silinməyəcək və yerli, eləcə də xarici medianın daim müzakirə edəcəyi çıxış Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin çıxışı zamanı səsləndirdiyi fikirlər oldu. Prezident İlham Əliyev çıxışında nəinki Azərbaycanın, ümumilikdə regionun siyasi, ictimai, iqtisadi mənzərəsinə təsir edəcək aktual məsələlərə toxundu və problemlərin aradan qaldırılması üçün konkret yol göstərdi.

Bugünkü Qələbələrin başlanğıc tarixi YAP-ın təsis qurultayında qoyulub

Prezident İlham Əliyev bugünkü uğurların, qələbələrin başlanğıc tarixinin Yeni Azərbaycan Partiyasının təsis qurultayında baş verdiyini söylədi. Haqlı və əsaslı olaraq qeyd etdi ki, o vaxt cəmiyyətimizin cəsarətli insanları, mütərəqqi insanlar, Azərbaycan dövlətinin taleyini düşünən insanlar Ulu Öndər Heydər Əliyevin ətrafında birləşmişdilər: "1992-ci ilin noyabrında Naxçıvanda keçirilmiş Yeni Azərbaycan Partiyasının təsis qurultayı faktiki olaraq qələbələrimizə yol açmışdır. Bu, bir ictimai sifariş idi. Çünki o vaxt Azərbaycan artıq idarəolunmaz vəziyyətə düşmüşdü. Müstəqillik bərpa ediləndən sonra, hətta ona qədər biz böyük itkilərlə üzləşmişdik. Həm torpaq itkisi, eyni zamanda, ölkəmizdə gedən xoşagəlməz proseslər faktiki olaraq Azərbaycanı uğursuz dövlətə çevirirdi. Bir-birini əvəzləyən dırnaqarası liderlər faktiki olaraq iflic vəziyyətdə idi, öz vəzifə borclarını yerinə yetirə bilmirdilər və beləliklə, torpaqlarımız hissə-hissə işğal edilməyə başlamışdır. İlk növbədə, keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətində Azərbaycanın nəzarəti tam itirilmişdir. Ondan sonra Şuşa və Laçın rayonları 1992-ci ilin may ayında işğal altına düşmüşdür və ondan bir ay sonra AXC-Müsavat cütlüyü hakimiyyətə gəlmişdi. Yəni birbaşa onların cinayətidir. Hakimiyyətə gəlmək üçün, ovaxtkı hakimiyyəti devirmək üçün məhz bu təxribata əl atdılar, faktiki olaraq torpağı Ermənistana təhvil verdilər və ondan sonra bizim itkilərimiz daha da böyüdü.1993-cü ilin aprelində Kəlbəcərin işğalı faktiki olaraq Ermənistanla keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti arasında böyük bir coğrafi əlaqə yaratmışdı. Beləliklə, Ermənistandan daha böyük həcmdə həm canlı qüvvə, həm silah-sursat, texnika gətirilirdi. Faktiki olaraq ölkəmizin Birinci Qarabağ müharibəsindəki məğlubiyyəti məhz o vaxt baş vermişdir.Əslində, Heydər Əliyevdən sonrakı dövrə nəzər saldıqda, - mən 1980-ci illəri nəzərdə tuturam, - hər kəs açıq-aydın görür ki, ondan sonrakı Azərbaycan rəhbərləri öz vəzifə borclarını dərk edə bilməmişdilər, zəiflik, qorxaqlıq, fərarilik göstərmişdilər. Təkcə onu demək kifayətdir ki, Heydər Əliyevdən sonra həm sovet dövründə, həm müstəqillik dövründə Azərbaycana rəhbərlik etmiş 4 rəhbərdən 3-ü Bakıdan qaçmışdır. Faktiki olaraq müharibə şəraitində olan, yaxud da ki, artıq erməni aqressiyasına düçar olan ölkəni, xalqı başlıbaşına buraxıb Bakıdan qaçmışdılar - ikisi Moskvaya, biri Kələkiyə. Dördüncüsü isə, sadəcə olaraq, hələ Ermənistan-Azərbaycan münaqişəsi başlamadan sovet rəhbərliyi tərəfindən vəzifəsindən azad edilmişdir, yəqin ki, buna görə Bakıda qalmışdır. Bax bu, utancverici tarixdir. Məncə, biz bu tarixi heç vaxt silə bilmərik, bunu biz bilirik, gənc nəsil də bilməlidir. Kimlər Azərbaycanı idarə edib və xalqımız hansı fəlakətlərlə üzləşmişdi. Ona görə Yeni Azərbaycan Partiyasının yaradılması, yenə də deyirəm, xalqın tələbi idi. Heydər Əliyevin yenidən hakimiyyətə qayıtması xalqın tələbi idi. Çünki xalq çox yaxşı bilirdi ki, məhz Heydər Əliyev Politbürodan, sovet hakimiyyətindən uzaqlaşdırılandan sonra iki həftə keçməmiş - 1987-ci ilin noyabrında erməni millətçilər Qarabağı Ermənistana birləşdirmək üçün məsələ qaldırmışdılar. Bu təklif sovet rəhbərliyi və Bakı cəlladı Qorbaçov tərəfindən dəstəklənmişdir. Faktiki olaraq sovet rəhbərliyi o vaxt öz qərarını vermişdi. Azərbaycanda isə hakimiyyətdə oturan satqın rəhbərlər və bütövlükdə satqın rəhbərlik, sadəcə olaraq, onların əlində bir alət idi. Təsəvvür edin, əgər Heydər Əliyev o vaxt Azərbaycanda olsaydı, heç vaxt imkan verə bilməzdi ki, Azərbaycan xalqının başına bu oyunlar açılsın. Heç vaxt imkan verməzdi ki, separatizm meyilləri Qarabağda yer alsın. Ona görə Azərbaycan xalqı bütün bunları yaxşı bilərək öz nicat yolunu ancaq Heydər Əliyevlə bağlayırdı və həmişə olduğu kimi müdriklik göstərmişdir, 1993-cü ilin oktyabr ayında Ulu Öndər Azərbaycan Respublikasının Prezidenti seçilmişdir. Ancaq o vaxta qədər artıq biz böyük itkilərlə üzləşmişdik - torpaq itkisi, iqtisadiyyat tamamilə çökmüşdür. Neftlə, qazla zəngin olan ölkədə qaz qıtlığı, elektrik enerjisi qıtlığı yaranmışdır. İnflyasiya 1000 faizdən çox idi, xəzinə boş idi. AXC-Müsavat cütlüyü Ermənistan torpaqlarımızı işğal edən zaman vətəndaş müharibəsini də başlamışdır, qardaş qanı tökmüşdür. Sonra da qorxaqcasına hərəsi bir yerə qaçaraq fərarilik etmişdilər. Bax, belə bir şəraitdə Azərbaycan xalqı öz taleyini öz liderinə əmanət etdi.Ondan sonrakı dövr də çox çətin idi və sınaqlarla dolu idi. Ancaq Heydər Əliyev kimi qətiyyətli, cəsarətli dahi şəxsiyyət bütün bunların qabağında dura bilmişdi və Azərbaycanın ərazi bütövlüyünün qorunmasında, Azərbaycanın parçalanmaqdan xilas edilməsində onun amili aparıcı rol oynamışdır. Həm separatçılıq, həm parçalanma təhlükələri, dövlət çevrilişinə iki cəhd, iqtisadi çətinliklər - bütün bunlar o vaxt reallıq idi".

"Bütün o böyük dayılar bizə qarşı idi"

YAP-ın VIII Qurultayında Prezident İlham Əliyev qətiyyətli çıxışı ilə, son vaxtlar Azərbaycanı hədəfə alan və 44 günlük Vətən Müharibəsində qazanılan parlaq qələbəmizə kölgə salmağa çalışanları yerində oturdub, onları iflic vəziyyətinə salmış oldu. Prezident çıxışında onu da bildirdi ki, bu gün müxtəlif yerlərdə müharibələr gedir. Hərənin arxasında, necə deyərlər, böyük bir dayı var. Bəzilərinin arxasında bir neçə. Amma biz təkbaşına. Amma bütün o böyük dayılar bizə qarşı idi. O Minsk qrupunun həmsədrləri bizə qarşı idi. Onlar bu gün dünyada aparıcı dövlətlərdir, görün, biz kimə qarşı müharibə aparmışıq. Ermənistanın arxasında onlar dayanmışdılar və bu gün də dayanırlar, hərə öz bildiyi formada. Ona görə biz həm Qələbəmizlə fəxr edirik, həm cəsarətimizlə fəxr edirik, iradəmizlə fəxr edirik, xalqımızla fəxr edirik, dövlətimizlə fəxr edirik. Ona görə bu da ideoloji təxribatlara qarşı ciddi bir maneədir. Əlbəttə ki, bizim ideoloji məkanımız yad ünsürlərdən, yad təsirlərdən azad olmalıdır. Bu, eyni zamanda, bizim xarici siyasət strategiyamızdır. Xarici siyasəti biz elə qururuq və bundan sonra da qurmalıyıq ki, heç kim bizim işimizə müdaxilə etməsin. Bizə heç kimin köməyi də lazım deyil, himayədarlığı da lazım deyil. Bizə lazım olan vaxtda bizə heç kim kömək etməyib. Bir milyon qaçqınımız olanda heç kim bizə əl uzatmayıb. Nə almışıqsa, pulla almışıq. O cümlədən bütün silahları da pulla almışıq, özü də dünya qiymətinə - son gülləyə qədər. Mən sizə tam məsuliyyətlə deyirəm, Ali Baş Komandan kimi, bütün bu məsələlərə rəhbərlik edən şəxs kimi. Bilirsiniz ki, 2003-cü ildən bu yana Azərbaycan nə qədər silahlanıb, həm yerli istehsalı yaradıb, həm xaricdən alıb. Bir dəfə də bizə bir manat, bir dollar güzəşt etməyiblər. Hətta bəzən dünya qiymətindən bir neçə dəfə baha satıblar. Biz də məcbur olub buna göz yummuşuq. Ona görə bu, çox ciddi bir məsələdir".

Göründüyü kimi, Cənubi Qafqazın ən güclü və lider partiyası olan YAP uğurları və qələbələri ilə yeni tarix yazır. Bu tarixi uğurlar davamlı və dönməzdir. Çünki xalq Azərbaycan dövlətinə böyük qələbələr bəxş edən Ulu Öndər Heydər Əliyevin siyasətinə sadiqdir. Eyni zamanda, xalq birmənalı şəkildə ölkə Prezidenti, YAP Sədri İlham Əliyevin daxili və xarici siyasətini bəyənir və dəstəkləyir.

İ.ƏLİYEV

Tolerantlıq üzrə dünyada model

Tarixin müxtəlif dönəmlərində Azərbaycan tolerant mühiti, multikultural dəyərləri ilə seçilən məkan olub. Ölkəmiz hər zaman sülsevər dövlət kimi, dünyaya multkultural dəyərələrini, tolerant mütiti ilə özünün xoşməramlı mesajlarını göndərir. Bütün dinlərin və etnik qrupların nümayəndələrinin birgə yaşaması və ölkəmizin uğurlu inkişafına birgə töhfələr mövcud mühitin təzahürüdür. Multikultural və çoxkonfessiyalı ölkə olan Azərbaycanda bütün xalqlar və dinlərin nümayəndələri əsrlərdir dinc yanaşı yaşayır, qurub-yaradırlar. Azərbaycan tolerantlıq və dözümlülük ənənələri ilə zəngin olan, milli-mənəvi dəyərlərinə sadiq dövlətdir. Bu baxımdan, Azərbaycan dünyada təkcə enerji resursları ilə zəngin olan ölkə kimi deyil, həm də humanizm prinsiplərinə sadiq, tolerant və multikultural ölkə kimi tanınır. Bu gün ölkəmizdə 2250 məscid mövcuddur, 14 kilsə, 7 sinaqoq, 748 pir və ziyarətgah fəaliyyət göstərir. Bütün dinlərin nümayəndələri öz dini ayinlərini azad şəkildə icra edir və qarşılıqlı hörmət və anlaşma, sülh şəraitində birgə yaşayırlar. Xalqımızın Ümummilli Lideri Heydər Əliyev ikinci dəfə hakimiyyətə qayıdışından sonra milli azlıqlar tarixi, mədəni adət-ənənələrini qoruyub saxlamaq naminə öz mədəniyyət mərkəzlərini yaratdılar. Bunun nəticəsidir ki, hazırda Azərbaycanda onlarla milli-mədəniyyət mərkəzləri fəaliyyət göstərir. Belə təşkilatlardan Talış Mədəni Mərkəzi, Kürd Mədəni Mərkəzi (Ronai), Ləzgi Mədəni Mərkəzi (Samur), Ləzgilərin Mifologiyasını Öyrənən Mərkəz, "Saxur" Mədəni Mərkəzi, Şeyx Şamil adına Avar Cəmiyyəti, Udinlərin "Orayin" Mədəni Mərkəzi, tatların "Azəri" Mərkəzi, Buduq Mədəni Mərkəzi, Azərbaycan Slavyanlarının Mədəni Mərkəzi, Rus İcması Cəmiyyəti, Xınalıq Mədəni Mərkəzi, Azərbaycan Tatlarının İcması, Azərbaycan Gürcülərinin Cəmiyyəti, Azərbaycan Ukraynalılarının Cəmiyyəti, Azərbaycan Avropa Yəhudilərinin İcması, Almanların Milli - Mədəni Cəmiyyəti, Azərbaycan Yəhudiləri Cəmiyyəti, Beynəlxalq "İudaika" Cəmiyyəti, Məhsəti Türklərinin Vətən Cəmiyyətini göstərmək olar.

Azsaylı xalqların mədəniyyətinin təbliğində geniş imkanlar

Azərbaycanda yaşayan milli azlıqların folklorunun, mədəniyyətinin geniş təbliği üçün bədii özfəaliyyət kollektivlərinin repertuarının milli zəmində inkişafı üçün tədbirlər həyata keçirilir. Elə xalq kollektivləri var ki, onlar nəinki respublikamızda, eyni zamanda, bir çox xarici ölkələrdə də məşhurdurlar. Saatlının "Adıgün" - Axıska türkləri, Cəlilabadın "Ruçeyok" - rus, Qaxın "Şividkatsa" - gürcü, Zaqatalanın "Ceyranım" - saxur, Qubanın tat, yəhudi, Qusarın "Trillo", "Şahnabat", "Mel", "Qayıbulaq", "Şahdağ", "Dustaval" və "Melodiya" - ləzgi, Laçının kürd, Balakənin "Xoylo" - avar, Lənkəranın "Şənlik", "Bacılar" folklor mahnı və rəqs, Masallı rayonu "Halay", Lerik rayonunun "Laqutto", Astaranın "Sevinc" - talış, İsmayıllı rayonu İvanovka kənd mədəniyyət evinin - malakan, Bakı şəhərindəki "Gözəlim" tatar bədii özfəaliyyət kollektivləri bu qəbilədəndir. Ölkəmizdə dözümlülük ənənələrinin qorunub saxlanılmasına Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi də öz böyük töhfəsini verir. Dini fəaliyyət sahəsində dövlət siyasətini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanı olan Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi Azərbaycan Respublikası Prezidentinin 21 iyun 2001-ci il tarixli ilə yaradılıb. Müstəqil Azərbaycanın Banisi, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin rəhbərliyi altında dövlət quruculuğu prosesinin tərkib hissəsi kimi dövlət-din münasibətləri sisteminin əsas prinsipləri, bu sahəni tənzimləyən qanunvericilik bazası uğurla formalaşdırıldı. Ulu Öndərin dövlət-din münasibətlərinin tənzimlənməsi sahəsində böyük və tarixi xidmətlərindən biri olan Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin yaradılması oldu.

Bu gün Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan xalqının multikultural ənənələrinin qorunması sahəsində həyata keçirilən siyasi kurs Prezident İlham Əliyev tərəfindən davam və inkişaf etdirilir. "Ölkəmizdə sabitliyin mənbəyi xalqımızın iradəsidir, xalqımızın seçimidir"- deyən Azərbaycan Prezidenti Cənab İlham Əliyev bu gün ölkəmizin dünya miqyasında sabitliyi ilə seçilən ölkələrdən birinə çevrildiyini bildirib. Belə bir ölkə multikultural və tolerant dövlət kimi də tanınır. Təsadüfi deyil ki, dünya dövlətləri Azərbaycanın bu sahədə öz təcrübəsini yaymasında maraqlıdır. Azərbaycan yüksək dəyərlərə sahib olan multikultural cəmiyyətdir. Azərbaycan əhalisinin 96 faizinin müsəlman olmasına baxmayaraq, xristianlar, yəhudilər, ümumiyyətlə, bütün dini konfessiyaların nümayəndələri sülh və əmin-amanlıq şəraitində birgə yaşayırlar.

DÜNYA MİQYASINDA XRİSTİAN İRSİNİN QORUNMASINA TÖHFƏ

Vurğulayaq ki, ölkəmizdə olan çoxsaylı xristian icması cəmiyyətimizin ayrılmaz və fəal hissəsidir, onların abidələri və ibadət yerləri, kilsələr Azərbaycan dövləti tərəfindən tam mühafizə edilir və mütəmadi olaraq bərpa edilir. Təsadüfi deyil ki, Roma Papası Fransisk 2016-cı ilin oktyabr ayında respublikamıza səfəri zamanı Azərbaycanı dini tolerantlıq üzrə dünyada model ölkə kimi qiymətləndirmişdi. Son illərdə Rus Pravoslav Baş Kafedral Kilsəsi, "Xilaskar" Yevangelik-lüteran kilsəsi, Gəncədəki Aleksandr Nevski Rus Pravoslav Kilsəsi dövlət tərəfindən təmir olunub, Bakı və Azərbaycan Yeparxiyasının Pravoslav Dini-Mədəniyyət Mərkəzi inşa edilib. Bundan əlavə, Qəbələdəki Çotari alban-udi və Bakıdakı Pravoslav kilsələrinin təmiri, Bakıdakı Müqəddəs Məryəm kilsəsinin inşası Heydər Əliyev Fondunun "Tolerantlığın ünvanı - Azərbaycan" layihəsi çərçivəsində reallaşdırılıb. O cümlədən, Qəbələnin Nic qəsəbəsindəki Müqəddəs Məryəm Ana alban kilsəsi Heydər Əliyev Fondu tərəfindən əsaslı şəkildə bərpa edilib. Azərbaycan təkcə ölkə daxilində deyil, dünya miqyasında da xristian irsinin qorunmasına töhfələr verib. Ölkəmizin dəstəyi ilə Vatikanda yerləşən Müqəddəs Sebastian katakombalarının, Heydər Əliyev Fondu ilə Müqəddəs Taxt-Tac arasında imzalanmış "Roma katakombalarının bərpasına dair ikitərəfli Saziş" çərçivəsində Roma şəhərində Müqəddəs Marçellinio və Pietro katakombalarının bərpası və s. ölkəmizin dini tolerantlığının nümunəsidir. Bütün bunlarla yanaşı, Bakı şəhərinin mərkəzində Azərbaycan dövləti tərəfindən erməni kilsəsi bərpa edilib. Çox təəssüfedici haldır ki, maddi-mədəniyyət abidələrinin zənginliyi ilə seçilən Qarabağ bölgəsinin Ermənistan tərəfindən işğalı nəticəsində İslam mədəniyyətinə aid olan bütün abidələr dağıdılıb. Xarici İşlər Nazirliyinin hazırladığı "Azərbaycan Respublikasının Ermənistan tərəfindən işğal olunmuş ərazilərində İslam dininə aid tarixi və mədəni irsin məhv edilməsi" və "Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı davam edən təcavüzü nəticəsində Azərbaycanın tarixi və mədəni irsinin dağıdılması və təhqir olunması" adlı hesabatlar hazırlanaraq UNESCO başda olmaqla, BMT, ATƏT, Avropa Şurası, İslam Əməkdaşlıq Təşkilatı digər beynəlxalq təşkilatlara təqdim edilib. İşğal altındakı torpaqlarımızda təqribən 403 tarixi dini abidə olub ki, onlardan 67-i məscid, 144-ü məbəd, 192-i ziyarətgahdır. Dağlıq Qarabağ və ətraf rayonların ərazilərində rəsmi fəaliyyət göstərmiş 67 müsəlman məscidinin 63-ü tamamilə, 4-ü isə qismən dağıdılaraq yararsız hala salınıb. Yalnız beynəlxalq təşkilatların təzyiqləri nəticəsində Ağdam Cümə məscidini, Şuşa şəhərindəki Aşağı Gövhərağa, Yuxarı Gövhərağa və Saatlı məscidlərinin divarlarını salamat saxlamaq mümkün olub. Ermənilər daha bir əxlaqsızlıq nümayiş etdirərək, Ağdam Cümə məscidinin içərisində ev heyvanları, o cümlədən donuz saxlamaqla öz iyrənc simalarını göstəriblər. Yerevandakı Dəmirbulaq məscidi yer üzündən silinib.

Artıq zaman yetişib. Azərbaycan işğaldan azad olunan bütün ərazilərimizdə olan tarixi, dini abidələrimizi məscidləri tikir, yenidən bərpa edir. 44 günlük Vətən müharibəsi ilə işğaldan azad edilən ərazilərdə geniş tikinti və quruculuq işlərinin aparılması ilə yanaşı bu ərazilərdə erməni vandallarının dağıtdığı milli irisi yenidən bərpa edərək, inkişaf etdirilməsinə xüsusi önəmin verilməsidir. Heydər Əliyev Fondunun təşkilatçılığı ilə "Xarıbülbül" festivalının Şuşanın azadlığa qovuşmasından dərhal sonra, eyni zamanda 2022-ci ilin mayında yenidən təşkil olunaraq yüksək səviyyədə keçirilməsi Azərbaycanın multikultural ənənələrinə sadiq qaldığını bir daha dünyaya nümayişi etdirdi. Festivalda ölkəmizdə yaşayan ayrı-ayrı xalqların yaradıcılıq qruplarının bir-birindən maraqlı çıxışları bütövlükdə festivalın rəngarəngliyini daha da artırdı. Bu bir faktdır ki, Azərbaycandakı bütün xalqların təmsilçiləri 44 günlük Vətən müharibəsində misilsiz fədakarlıqlar göstərdilər və Şuşada keçirilən festivalda onların iştirakı böyük sevincə səbəb oldu. Müzəffər Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev festival çıxışında demişdir: "Builki festival Azərbaycanda yaşayan xalqların nümayəndələrini əhatə edir. Bugünkü festivalda ölkəmizdə yaşayan müxtəlif xalqların nümayəndələri çıxış edəcəklər. Bu tövsiyəni festivalın təşkilatçısı olan Heydər Əliyev Fonduna mən vermişdim, çünki Vətən müharibəsində Azərbaycanda yaşayan bütün xalqların böyük payı vardır". Ölkəmizin müxtəlif bölgələrində yaşayan ayrı-ayrı xalqların musiqi qrupları və ifaçıları öz çıxışları ilə Azərbaycanın millətindən, dinindən asılı olmayaraq, hər bir kəsin vahid Vətəni olduğu mesajını bütün dünyaya çatdırmış oldular. Azərbaycandakı multikulturalizm mühiti müxtəlif xalqların və etnik qrupların dilinin, dininin və ümumilikdə mənəvi mədəniyyətinin inkişafına geniş imkanlar yaradır. Azərbaycanda dövlət-din münasibətləri tənzimlənib, dini sahədə sabitliyə nail olunub, konfessiyalar arasında dözümlülük mühiti dövlət səviyyəsində qorunub saxlanılır. Tolerantlıq mühiti dövlət-din konsepsiyasına uyğun daha da möhkəmlənib, bu sahə də dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrilib. Müxtəlif tarixi dövrlərdə Azərbaycan ərazisində məskunlaşmış dini-etnik qruplar burada özlərini nəinki yad hesab edib, hətta yerli əhali ilə qaynayıb-qarışıb, qohumluq əlaqələri qurublar. Fərqli dini konfessiyaların nümayəndələri hər zaman Azərbaycan xalqı ilə həmrəy olub, Azərbaycan "tolerant ölkədən tolerant dünyaya doğru" şüarının reallaşdırılmasını özünün hədəfi kimi müəyyənləşdirib.

NƏZAKƏT ƏLƏDDİNQIZI

Həyata yalnız pəncərədən baxma!

İnsan sağlamlığında ən vacib amillərdən biri onun dayaq-hərəkət sistemidir. Bu sistem zədələnməyibsə, düzgün işləyirsə, onu tənbəlliyimizə və məsuliyyətsizliyimizə qurban verməmişiksə, deməli, dünya bizimdir: yaşayacağıq, həm də sağlam yaşamaqla dünyanın gözəlliklərini də görəcəyik. Çünki dayaq-hərəkət sistemi ayaq üstündə olmaq, yerimək, gəzmək və görmək deməkdir.

Lakin təəssüflər olsun ki, son 20-30 ildə həyatımıza daxil olan texnologiyalar tənbəlliyimizə səbəb olub, əslində sağlamlığımızı əlimizdən alıb, laklin biz bunun fərqində deyilik. Bu texnologiya həddən artıq oturmağa, istirahətə şərait yaradıb. Nəticədə xüsusilə qadınlarda çəki artımı, hərəkətin məhdudlaşması ilə əlaqədar bir sıra xəstəliklərlə mübarizə aparmalı olub.

Bu gün, 12 oktyabr -Ümumdünya Artritlə Mübarizə Günüdür. 1996-cı ildən etibarən qeyd olunan bu xüsusi günün əsas məqsədi dayaq-hərəkət aparatı xəstəlikləri barədə cəmiyyətin maarifləndirilməsi, erkən diaqnostikanın vacibliyinin vurğulanması və bu xəstəliklərdən əziyyət çəkən insanlara dəstək olmaqdır.

Nə üçün dayaq-hərəkət sistemimiz pozulur?..

Artrit və digər oynaq xəstəliklərindən dünyada 350 milyondan çox insan əziyyət çəkir. Xüsusilə yaşlı əhali arasında ən çox əlilliyə səbəb olan faktordur. Ümumi göstəricilərə və tibbi statistikaya əsasən, ölkəmizdə də on minlərlə insan artrit və revmatoloji xəstəliklərdən əziyyət çəkir. Yaş artdıqca, bu göstərici yüksəlir, lakin son illər uşaqlar və gənclər arasında da rast gəlinmə tezliyi artıb.

Artrit tək bir xəstəlik deyil, 100-dən çox müxtəlif növü olan oynaq iltihabıdır. Ən çox yayılan növləri osteoartrit və revmatoid artritdir. Bəs bu xəstəliyin əsas yaranma faktorları nələrdir? Birinci, genetik amillərdir: ailədə revmatoloji xəstəlikləri olanlarda risk daha yüksək olur. İkinci, yaş və cinsiyyətdir: bu xəstəlik xüsusilə qadınlarda və orta yaşdan yuxarı şəxslərdə daha tez-tez rast gəlinir. Üçüncü, artıq çəkidir: çəkinin çox olması diz və çanaq oynaqlarına düşən yükü artırır, qığırdaqların tez yeyilməsinə səbəb olur.

Xəstəliyin digər səbəbləri isə oynaq zədələri, keçirilmiş travmalar və ya idman zədələrinin illər sonra artritə çevrilə bilmə faktorudur. Və ya immun sisteminin pozulması, nəticədə immunitetin öz toxumalarına hücum etməsi nəticəsində revmatoid artritin meydana çıxmasıdır. Digər səbəb isə maddələr mübadiləsi pozuntuları, məsələn, orqanizmdə sidik turşusunun artması nəticəsində yaranan podaqradır.

Artrit necə müalicə olunur?

Artritin müalicəsi onun növündən və mərhələsindən asılı olaraq individual aparılır. Bunun üçün bir neçə üsul həyata keçirilir. Bunlardan birincisi dərman müalicəsidir. Xüsusi dərmanlar iltihabəleyhinə, ağrıkəsici və xəstəliyin gedişatını dəyişən immunomodulyator preparatlardır.

İkinci müalicə üsulu fizioterapiya və müalicəvi idmandır ki, bu oynaqların hərəkətliliyini saxlayır, əzələləri möhkəmləndirir.

Cərrahi müdaxilə xəstəliyin gedişində son tətbiqlərdən biridir. Son mərhələlərdə zədələnmiş oynağın protezlə əvəz olunması-endoprotezləşdirməyə böyük ehtiyac yaranır. Belə olan hallarda həyat tərzinin dəyişdirilməsi-pəhriz, çəkiyə nəzarət və zərərli vərdişlərdən imtina vacibdir.

Erkən mübarizə həyatı xilas edir

Artritlə mübarizədə ən vacib addım erkən diaqnostikadır. Vacib tövsiyələrə əməl edərək xəstəliyin qarşısını almaq və ya gedişatını yavaşlatmaq mümkündür. Məsələn, xəstə simptomlara laqeyd yanaşmamalıdır, oynaqlarda ağrı, səhərlər sərtlik, oynaqların çətin açılması, şişkinlik və ya qızartı hiss etdikdə ləngimədən revmatoloq həkimə müraciət etməlidir.

Oturaq həyat bu xəstəliyin düşmənidir. Ona görə də aktiv olmaq lazımdır. Hər gün ən azı 30 dəqiqə piyada gəzmək, üzmək və ya yüngül gimnastika etmək oynaq qığırdaqlarını qidalandırır. Çəkiyə nəzarət etmək isə mütləqdir. Artıq çəkidən azad olmaq oynaqların yükünü dəfələrlə azaldır.

Burada ən vacib amil həm də düzgün qidalanmaqdır. Omeqa-3 (balıq), təzə tərəvəzlər və antioksidantlarla zəngin qidalara üstünlük vermək, duz və şəkər qəbulunu azaltmaq lazımdır. Oynaqları hər an travmadan qorumaq isə əsla unudulmamalıdır: ağır yüklər qaldırarkən və idman edərkən oynaqları düzgün mövqedə saxlamaqla bunu həyata keçirmək olar.

Unutmaq lazım deyil ki...

İnsan yalnız ayaq üstündə, həm də ağrısız-acısız xoşbəxt ola bilir. Digər xəstəliklər bir yana, dayaq-hərəkət sisteminin düzgün işləməməsi insanın dünyasını məhv edir. Adam ayağa qalxa, gəzə bilmirsə, yalnız pəncərədən baxırsa, xoşbəxt deyil, ola da bilməz. Odur ki, deyilənlərə-məsləhət və tövsiyələrə əməl etməklə artritə qarşı mübarizə aparaq. Həyatı pəncərədən deyil, parklardan, küçələrdən, meşələrdən, bağçalardan, yollardan izləmək-zövq almaq üçün...

Mətanət Məmmədova

"Mənzil probleminin həlli gənclərin ailə qurmağa marağını artıra bilər"

"Azərbaycanın mənzil bazarında qiymətlərin yüksək olması və kirayə qiymətlərində son dövrlərdə müşahidə edilən artımlar, əlbəttə ki, gənclərin ailə qurmasına birbaşa təsir edir. Çünki gənc əhalinin, gənclərin mənzil ehtiyacının olması təbii haldır". Bu fikirləri SİA-ya açıqlamasında fəlsəfə doktoru, sosioloq Ağasəlim Həsənov deyib. Onun sözlərinə görə, onlar karyeralarının ilkin mərhələlərində, təbii ki, mənzil əldə etmək imkanlarına əsasən malik olmurlar. Ailə qurarkən də gənc ailənin ilk düşündüyü məsələ məhz yaşayış üçün mənzillə təmin olunmaqdır:

"Bu imkanlar yetərsiz olduqda mənzil əldə etmək çətinləşir və qiymətlər kifayət qədər yüksək olduğundan mənzil gənclər üçün əlçatan olmur. Xüsusilə də Bakı və digər böyük şəhərlərimizdə kirayə qiymətləri o qədər də münasib deyil. Bu səbəbdən ailə qurmağa meylin azalmasına təsir edən amillər sırasında, əlbəttə ki, mənzil təminatının olmaması, mənzil almaq istəyən gənclər üçün qiymətlərin yüksək olması və ya kirayə qiymətlərinin baha olması birbaşa təsir göstərir. Bu vəziyyət gənclərin ailə qurmaq istəyinə mənfi təsir edə bilər.

Çıxış yollarına gəldikdə, hazırda sosial layihələr, eləcə də mövcud kirayə mənzil mexanizmi var. Amma faktiki olaraq, orada ilkin şərtlər yumşaq olsa da, nəticədə, məsələn, Bakı şəhərində birotaqlı mənzilin əldə edilməsi kifayət qədər böyük məbləğdə vəsait tələb edir. Müddət 10 il olsa belə, gənclər bu məbləği ödəmək məcburiyyətində qalırlar. Ona görə də dövlət tərəfindən həyata keçirilən kirayə mənzil mexanizmi də bugünkü gündə gənclər üçün o qədər əlçatan və uyğun variant deyil.

Əslində, mənzil təminatı ilə bağlı güzəştli variantların, gəncləri ailə qurmağa təşviq edən və həvəsləndirən layihələrin həyata keçirilməsi zəruridir. Çünki gənclər arasında ailə qurmağa həvəsləndirən, motivasiya edən dövlət səviyyəli tədbirlərin həyata keçirilməsi vacibdir, zəruridir. Biz demirik ki, bundan əvvəl belə tədbirlər olmayıb, amma daha humanist, daha əlçatan və daha optimal variantlar üzərində düşünmək lazımdır.

Çünki Azərbaycanın demoqrafik inkişafında müəyyən ləngimələr müşahidə olunur. Bu da ailə institutunun zəifləməsi, ailə qurmağa meylin azalması, boşanmaların artması və digər amillərlə bağlıdır".

Lətifə Musayeva

Süni intellekt yarımkeçirici sənayesində - ŞOK ARTIM



Tayvanın TSMC şirkəti 2026-cı ilin üçüncü rübündə rekord gəlir əldə edib. Şirkətin nəticələri süni intellekt sistemlərinin inkişafının yarımkeçirici sənayesinə təsirini göstərir. Dünyanın ən böyük müqaviləli çip istehsalçılarından biri olan TSMC 2026-cı ilin iyul-sentyabr aylarında 1,49 trilyon Tayvan dolları, yəni təxminən 46,71 milyard ABŞ dolları gəlir əldə edib. Reuters-in oktyabrın 8-də yaydığı məlumata görə, bu, ötən ilin eyni dövrü ilə müqayisədə 50 faiz artım deməkdir. Nəticə analitiklərin gözləntilərini də üstələyib.

TSMC-nin istehsal etdiyi qabaqcıl yarımkeçiricilər süni intellekt sistemlərində, məlumat mərkəzlərində və yüksək hesablama gücü tələb edən texnologiyalarda istifadə olunur. Şirkət Nvidia və Apple kimi böyük texnologiya istehsalçıları üçün də mühüm təchizatçıdır.

Süni intellekt modellərinin hazırlanması və işlədilməsi böyük hesablama resursları tələb edir. Bu isə yüksək məhsuldarlıqlı çiplərə və çiplərin bir-biri ilə səmərəli əlaqələndirilməsinə imkan verən qabaqcıl qablaşdırma texnologiyalarına tələbatı artırır. Reuters-in məlumatına görə, TSMC-nin sentyabr ayı üzrə gəliri ötən ilin eyni ayı ilə müqayisədə 54,6 faiz artaraq 511,86 milyard Tayvan dollarına çatıb.

Reuters oktyabrın 12-də analitiklərin TSMC-nin üçüncü rüb üzrə xalis mənfəətinin illik müqayisədə təxminən 65 faiz artaraq 746,3 milyard Tayvan dollarına yüksələcəyini gözlədiyini yazıb. Şirkətin ətraflı maliyyə nəticələrini oktyabrın 15-də açıqlaması nəzərdə tutulur. Bu rəqəm həmin tarixdə hələ analitiklərin proqnozu idi, təsdiqlənmiş yekun nəticə deyil.

Şirkət ABŞ-da istehsal gücünü genişləndirmək üçün də böyük investisiyalar planlaşdırır. Bununla yanaşı, qabaqcıl çiplərə tələbatın gələcəkdə hansı sürətlə artacağı və süni intellekt infrastrukturuna qoyulan sərmayələrin gəlirliliyi sənaye üçün əsas suallardan biri olaraq qalır.

TSMC-nin nəticələri süni intellektin yalnız proqram təminatı sahəsini deyil, çip istehsalından məlumat mərkəzlərinə qədər geniş texnoloji zənciri dəyişdirdiyini göstərir. Bununla belə, çiplərə tələbatın artması şirkətlərin gələcək mənfəətinə dair bütün riskləri aradan qaldırmır. İstehsal xərcləri, enerji təminatı, rəqabət və yeni texnologiyalara qoyulan investisiyaların geri dönüşü sektorun inkişafına təsir göstərə bilər.

Lalə Mehralı

Məktəbli forması, yoxsa?..

Məktəbli forması və geyim qaydaları dünyada həm təhsil sisteminin tənzimlənməsi, həm də cəmiyyətdəki sosial-dini tarazlığın qorunması baxımından geniş müzakirə olunan mühüm mövzulardandır. Bəs, görəsən, vahid məktəbli forması dünyanın neçə ölkəsində tətbiq olunur?

Dünyada 60-dan çox ölkədə vahid məktəbli forması dövlət səviyyəsində və ya məktəblərin böyük əksəriyyətində məcburi (və ya ümumi standart) olaraq tətbiq edilir. Məcburi geniş tətbiq olunan ölkələr Böyük Britaniya, Yaponiya, Cənubi Koreya, Hindistan, Avstraliya, Yeni Zelandiya, Tailand, Malayziya, Türkiyə (müəyyən çərçivədə), körfəz ölkələri və Afrika ölkələrinin böyük əksəriyyətidir. Məktəblərin öhdəliyinə buraxılan ölkələr isə ABŞ və Kanada kimi ölkələrdə dövlət məktəblərində vahid forma məcburi olmasa da, xüsusi və özəl məktəblərin təxminən 20-25%-i vahid forma standartı tətbiq edir. Serbəst geyim üstünlük təşkil edən ölkələr də var, onlar Almaniya, Fransa, İspaniya, İtaliya və Skandinaviya ölkələrində dövlət məktəblərində vahid forma anlayışı demək olar ki, yoxdur (müəyyən geyim etiketi istisna olmaqla).

Bəs, vahid məktəbli formasının əsas əhəmiyyəti nədir? Birincisi, sosial və iqtisadi bərabərsizliyin gizlədilməsi. Müxtəlif gəlir səviyyəsinə malik ailələrin övladları eyni geyimi geyindikdə, şagirdlər arasında maddi imkan fərqləri və geyim brendləri üzərindən yaranan psixoloji təzyiq minimuma enir. İkincisi, məktəb intizamı və fokuslanma. Vahid forma şagirdlərdə "məktəb mühitində olma" şüurunu formalaşdırır, diqqətin geyim dəbinə deyil, dərs prosesinə yönəlməsinə kömək edir. Üçüncüsü, mənsubiyyət və həmrəylik hissi. Şagirdlərdə aidiyyət hissi və kollektiv ruh yaradır. Məktəb ərazisində kənar şəxsləri dərhal fərqləndirməyə və kütləvi gəzintilər zamanı şagirdlərin təhlükəsizliyinə nəzarət etməyə imkan verir. Dünyanın bir çox dünyəvi təhsil sistemlərində dini geyim və görünən dini simvolların (məsələn, hicab, xaç, kippa və s.) məktəblərdə istifadəsinə müəyyən məhdudiyyətlər qoyulur və ya tamamilə qadağan edilir (məsələn, Fransa modeli). Bunun əsas mənfi və riskli cəhətləri sosial bölünmə və ayrı-seçkilikdir. Dini geyim şagirdlərin dini mənsubiyyətini dərhal görünən edir. Bu da uşaqlar arasında "bizimkilər" və "özgələr" ayrımına, müxtəlif dini və ya dünyəvi baxışlı uşaqlar arasında qütbləşməyə yol açа bilər. Dini geyim geyinən uşaq dünyəvi və ya fərqli dini baxışlı mühitdə kənarlaşdırma və ya təcrid olunma ilə üzləşə bilər. Əksinə, müəyyən dini qrupların sıx olduğu məktəblərdə dini geyim geyinməyən şagirdlərə dindar həmyaşıdları tərəfindən mənəvi-psixoloji təzyiq göstərilə bilər.

Təhsil müəssisəsi neytral zəmin olmalıdır. Dini geyimlərin məktəbə daşınması dövlətin təhsildə təmin etməli olduğu neytrallıq və bərabərlik prinsiplərini kölgədə qoya bilər. Uşaqların hələ öz müstəqil dünya görüşü tam formalaşmadan ailənin və ya icmanın dini baxışlarını əks etdirən geyimlərə məcbur edilməsi onların fərdi inkişafına və azad seçim hüququna mənfi təsir göstərə bilər.

Məktəblərdə dini geyim və dünyəvilik siyasəti

Fransa və Türkiyənin təhsil sistemlərində dünyəvilik və dini geyimlərlə bağlı yanaşmaları müqayisə etdikdə, hər iki ölkənin tarixi təcrübələrə dayanan, lakin müasir dövrdə tamamilə əks istiqamətlərə yönələn modellər tətbiq etdiyini görmək olar. Fransa modeli təhsildə dünyəviliyi neytallıq dərəcəsində qoruyan və bütün dini simvolları dövlət məkanından tamamilə təcrid edən radikal yanaşmaya söykənir. 1905-ci il kilsə ilə dövlətin ayrılması haqqında fundamental qanun qəbul edildi, 2004-cü ildə dövlət məktəblərində (ibtidai və orta təhsil) şagirdlərin görünən dini simvollar daşıması (hicab, böyük xaç, kippa, sikx türbanı) rəsmən yasaqlandı. 2023-cü il addımında isə məktəblərdə "abaya" (ənənəvi uzun dini/mədəni geyim) tətbiqinə də qadağa qoyuldu. Məktəb - dini, etnik və ya mədəni fərqliliklərin unudulduğu, hər bir şagirdin yalnız "Fransa Respublikasının bərabərhüquqlu vətəndaşı" kimi formalaşdığı neytral məkandır. Qaydaları pozan şagirdlər öncə xəbərdarlıq edilir, ardınca məktəbdən kənarlaşdırılır (ekspulsiyaya məruz qalır).

Türkiyənin konsepsiyası

Türkiyə Cümhuriyyəti uzun illər Fransanın modelini kopyalasa da, son onillikdə köklü şəkildə fərqli - dinin ictimai və təhsil həyatında daha görünən olduğu bir modelə keçib. Cumhuriyyət dövrü (1923) və 1980-90-cı illərdə məktəb və universitetlərdə katolik/dünyəvi fransız modelinə oxşar olaraq hicab və dini geyim tamamilə qadağan idi. 2012-2014-cü illərdə aparılan İslahatlar zamanı Milli Təhsil Nazirliyi tərəfindən məktəblərdə geyim sərbəstliyi və orta məktəblərdə (litsey və imam-hatip məktəbləri daxil olmaqla baş örtüyünə qoyulan qadağa ləğv edildi. Dünyəvilik - dinin dövlətdən təcrid olunması deyil, dini etiqad azadlığının və fərdi seçimlərin dövlət tərəfindən müdafiə olunmasıdır. Şagirdlər dövlət məktəblərinə öz istəklərinə uyğun olaraq baş örtüyü və ya ənənəvi geyimlərlə gələ bilərlər. Dini təhsil (Din Kültürü ve Ahlak Bilgisi) və ibadət otaqları (məscid) məktəblərdə mövcuddur.

Fransa dünyəviliyi "eynilik və neytrallıq" üzərində quraraq fərqlilikləri məktəb qapısının arxasında saxlamağa çalışır. Türkiyə isə modern dövrdə dünyəviliyi "çoxluq və azadlıq" prizmasından şərh edərək dini ifadə azadlığını məktəb mühitinə daxil edib. Hər iki model öz daxilində sosial həmrəylik yaratmaq iddiasında olsa da, həm fransız, həm də türk cəmiyyətində bu məsələ hələ də ideoloji müzakirə obyekti olaraq qalır.

Azərbaycanın təhsil sistemi və dünyəvilik modeli

Azərbaycan Respublikası Konstitusiyasının 18-ci maddəsinə və "Təhsil haqqında" Qanunun 6-cı maddəsinə əsasən, Azərbaycanda dövlət təhsil sistemi dünyəvi xarakter daşıyır. Azərbaycanın dünyəvilik modeli özünəməxsus balanslaşdırılmış xüsusiyyətlərə malikdir. Dövlət təhsil müəssisələrində hər hansı dinin təbliğinə, dini ayinlərin keçirilməsinə və ya dini yönümlü siyasi təşkilatlanmaya izin verilmir. Təhsil proqramları elmi dünyagörüşünə söykənir. Məktəblərdə din ayrıca ibadət kimi deyil, "Həyat bilgisi" və tarix fənləri çərçivəsində mədəniyyət, mənəviyyat və dünya dinləri tarixi kimi obyektiv şəkildə tədris olunur.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 17 mart tarixli Qərarı ilə dövlət ümumi təhsil müəssisələri üçün vahid məktəbli forması təsvirləri və geyim etiketi təsdiq edilib. Vahid forma sosial-iqtisadi fərqləri vizual olaraq aradan qaldırmaq, şagirdlər arasında təbəqələşmənin və psixoloji təzyiqin (bullinqin) qarşısını almaq məqsədi daşıyır. Məktəbli forması standart köynək, şalvar, yubka və jiletdən ibarətdir. Geyim üzərində hər hansı kənar subkultura, siyasi və ya açıq dini simvolların olması məktəb intizam qaydalarına zidd hesab olunur. Azərbaycanın təhsildə dünyəvilik modeli ölkədəki çoxmədəniyyətli (multikultural) və fərqli dini icmaların dinc yanaşı yaşaması ənənəsinə söykənir. Bakı nə Fransadakı kimi cəmiyyətdə sosial gərginlik yaradan radikal qadağalara, nə də Türkiyədəki kimi məktəblərdə dini iddentikliyin qütbləşmə yarada biləcəyi kəskin sərbəstliyə meyil edir. Vahid məktəbli forması və dünyəvi təhsil prinsipi Azərbaycanda milli həmrəyliyin, sosial bərabərliyin və dövlətçilik təfəkküründən formalaşdırılmasına xidmət edən strateji təhlükəsizlik alətidir.

V.VƏLİLİ

Vəli Vəliyev

Səhv düşəndə yerimiz

Yaxud hicabı harada geyinmək olar?

Hicab və örtünmə məsələsi həm tarixi-etnoqrafik, həm də dini-hüquqi (fiqh) baxımdan İslam sivilizasiyasının və bəşər tarixinin en tez-tez müzakirə olunan mövzularından biridir. Bu məsələni düzgün anlamaq üçün onun İslamdan əvvəlki köklərinə, dini mətnlərdəki yerinə və müasir dövlət təcrübələrinə kompleks şəkildə nəzər salmaq lazımdır. Baş örtüyü və örtünmə adəti yalnız İslam dini ilə yaranmamışdır. Onun tarixi ibtidai və antik cəmiyyətlərə qədər gedib çıxır.

Mesopotamiya, Assuriya və Babil cəmiyyətlərində baş örtüyü sosial statusun və nəcabətin göstəricisi idi. Eramızdan əvvəl XIII əsrə aid Assuriya qanunlarında asilzadə və azad qadınların küçəyə çıxarkən örtünməsi məcburi idi, kənizlərə və fahişələrə isə örtünmək qadağan edilirdi.

Qədim yəhudi ənənəsində (Tora və Talmud mətnlərində) ərə gedən qadının başını örtməsi iffət və sosial statut təlabi sayılırdı. Bu gün də ortodoks yəhudi qadınları başlarını örtür və ya parik tətbiq edirlər. İncildə qadınların ibadət zamanı başlarını örtməsi göstərilir. Katolik və pravoslav kilsə ənənəsində monaxinyaların (rahibələrin) geyimi və ənənəvi kəndli qadınlarının baş örtüyü buna misaldır. İslamdan əvvəl Ərəbistan yarımadasında da qadınlar baş örtüyündən (ximar) istifadə edirdilər, lakin bu örtük arxaya atılır, sinə və boyun nahiyəsi açıq qalırdı.

İslamda hicab

İslamda örtünmə qaydaları Mədinə dövründə, cəmiyyətin və sosial münasibətlərin nizamlandığı mərhələdə nazil olan ayələrlə müəyyənləşdirilmişdir. "Hicab" ərəbcə "pərdə", "örtük", "maneə" deməkdir. Quran mətnində bu söz ilk olaraq fiziki pərdə (Məhəmməd peyğəmbərin zövcələri ilə danışarkən arada olan pərdə - Əhzab surəsi, 53-cü ayə) mənasında işlədilmişdir. İslam hüquqşünaslarının (sünni və şiə məzhəblərinin) böyük əksəriyyətinin konsensusuna görə, həddi-buluğa çatmış müsəlman qadının üz və əllər müstəsna olmaqla (bəzi təfsirlərdə pəncələr də daxil) bədənini örtməsi fərz (dini öhdəlik) hesab olunur.

Dünyada hicaba və dini geyimlərə münasibət müxtəlif dövlətlərin konstitusiya quruluşundan və siyasi rejimindən asılı olaraq kəskin fərqlənir.

Məsələn, İran İslam Respublikasında 1979-cu il İslam İnqilabından sonra "Hicab və İffət Qanunu" ilə ictimai yerlərdə bütün qadınlar üçün (o cümlədən xarici turistlər) baş örtüyü məcburi edilmişdir. Əfqanıstanda (Taliban rejimi) qadınların ictimai yerlərdə üzü də daxil olmaqla tam örtünməsi (burqa/çador) məcburidir. Səudiyyə Ərəbistanında əvvəllər abaya və örtük məcburi olsa da, son illərdə həyata keçirilən sosial islahatlar çərçivəsində bu məcburiyyət yumşaldılmışdır.

Dünyəvi təhsil

2004-cü ildə Fransanın dövlət məktəblərində dini simvolların (o cümlədən hicabın), 2010-cu ildə isə ictimai yerlərdə üzü tam örtən geyimlərin (nikab, burqa) geyinilməsi qanunla qadağan edilmişdir. Mərkəzi Asiyanın Tacikistan və Özbəkistan kimi dünyəvi dövlətlərində məktəblərdə və dövlət idarələrində vahid geyim forması tətbiq olunur, yad dini geyim formalarının tətbiqinə qarşı qanunvericilik bazası mövcuddur. Azərbaycan dünyəvi dövlətdir. İctimai yerlərdə, küçədə və ali təhsil müəssisələrində hicab azadlığı var. Yalnız orta məktəblərdə dünyəvi təhsil prinsipilə vahid məktəbli forması standartı tətbiq edilir. Böyük Britaniya, ABŞ, Almaniyada ictimai həyatda və iş yerlərində insan hüquqları və vicdan azadlığı çərçivəsində hicab geyinmək sərbəstdir (müəyyən təhlükəsizlik və uniforım tələb olunan peşələr müstəsna olmaqla). İslamda hicab və baş örtüyü mövzusuna baxış iki əsas sütun üzərində dəyərləndirilməlidir.

Birincisi, şəxsi inanc və ibadət azadlığı. Mənəvi və dini müstəvidə hicab müsəlman qadının fərdi vicdan azadlığı, inancının təzahürü və yaratğanına olan itətinin bir göstəricisidir. İnsan Hüquqları Bəyannaməsinə və dünyəvilik prinsiplərinə uyğun olaraq, yetkin bir qadının öz iradəsi ilə dini geyim seçməsi onun təməl hüququdur və buna hər hansı məcburi müdaxilə qəbulolunmazdır.

İkincisi, dünyəvi dövlət və ictimai qaydalar: Eyni zamanda, dövlətin public (ictimai) sahəni, xüsusən də məktəb kimi tərəfsiz sosial institutları tənzimləmək hüququ var. Məktəblərdə vahid geyim qaydaları dinin özünə deyil, təhsilin tərəfsizliyinə və bərabərliyinə xidmət edir.

Yekun olaraq onu deyə bilərik ki, hicab nə məcburi şəkildə qadınlara geyindirilməli (İran və ya Əfqanıstan nümunəsində olduğu kimi), nə də fərdlərin şəxsi həyatından və vicdan azadlığından tamamilə sıxışdırılıb çıxarılmalıdır. Ən sağlam model - dünyəvi dövlət çərçivəsində qanunlara riayət olunması və fərdlərin inanc seçiminə qarşılıqlı hörmətlə yanaşılmasıdır.

Kirpik qaynağının görünməyən üzü və ya mikroskopik təhlükə

Gözəllik məqsədilə geniş yayılan kirpik uzatma, başqa sözlə qaynaq proseduru ilə bağlı yeni aparılan araşdırma maraqlı nəticələr aşkarlayıb. Mütəxəssislər xüsusilə bu proseduru müntəzəm və uzun müddət etdirən şəxslərdə göz ətrafında bakteriya və parazitlərin toplanması üçün əlverişli mühit yarana biləcəyini bildirirlər.

Araşdırmanın nəticələrinə görə, kirpik uzatmaları yalnız estetik görünüşə təsir etmir, göz ətrafının gigiyenası və göz qapaqlarının sağlamlığı ilə bağlı müəyyən risklər də yarada bilər.

Kirpik diblərində mikroskopik gənələr

Mütəxəssislərin diqqət çəkdiyi əsas məqamlardan biri Demodex adlı mikroskopik gənələrdir. Bu canlılar normalda insan dərisində yaşayır və əksər insanlarda heç bir problem yaratmır. Lakin onların sayı həddindən artıq artdıqda və göz ətrafında toplandıqda müxtəlif narahatlıqlara səbəb ola bilər.

Kirpik uzatma zamanı süni liflər xüsusi yapışdırıcı vasitəsilə təbii kirpiklərə bərkidilir. Bu zaman yaranan struktur ölü dəri hüceyrələrinin, yağın və tökülmüş hüceyrələrin kirpik dibində toplanmasına şərait yarada bilər. Demodex gənələri isə həmin yığıntılardan qidalanaraq çoxala bilər. Bundan başqa, kirpik uzatmaları ölmüş gənələrin və digər qalıqların təbii şəkildə kirpiklərdən uzaqlaşmasını da çətinləşdirə bilər.

10 və daha çox prosedur keçirənlərdə təhlükə

Nəticələrə görə, ən azı 10 dəfə kirpik uzatma proseduru etdirən qadınların 85 faizində göz yaşının buxarlanmasının qarşısını almağa kömək edən yağın istehsalına cavabdeh vəzilərin tutulduğu və ya funksiyasını itirdiyi müəyyən edilib.

Araşdırmanın daha diqqətçəkən hissəsində isə müntəzəm olaraq kirpik uzatma etdirən 25 qadından götürülmüş kirpik nümunələri mikroskop altında araşdırılıb. Onlardan 24-də, yəni 96 faizində Demodex

gənələri aşkarlanıb.

Gənələrin aşkarlandığı qadınların əksəriyyətində müxtəlif göz və dəri problemləri də müşahidə olunub. 18 qadında qaşınma, qıcıqlanma, qızartı, şişkinlik, qabıqlanma və kirpiklərin bir-birinə yapışması kimi əlamətlər qeydə alınıb.

Mütəxəssislər vurğulayırlar ki, Demodex gənələrinin mövcudluğu öz-özlüyündə xəstəlik demək deyil. Lakin onların həddindən artıq çoxalması və göz ətrafında toplanması iltihab, göz qapağı problemləri və ağrılı göz infeksiyalarının yaranmasına şərait yarada bilər.

Gənələri aşkar etmək çətindir

Mütəxəssislərin diqqət çəkdiyi digər məqam isə kirpik qaynağının yalnız gənələrin çoxalması üçün əlverişli şərait yaratması deyil, onların mövcudluğunun müəyyən edilməsini də çətinləşdirməsidir.

ESCRS Kornea Komitəsinin sədri, professor Sorcha Ni Dhubhghaill bildirib ki, Demodex gənələri adətən kirpiklərin ətrafında buraxdıqları xarakterik qalıqlar vasitəsilə aşkar edilə bilir. Bu qalıqlar ölü gənələrin, onların ifrazatlarının və yumurtalarının dəri və yağla qarışması nəticəsində yaranan mumabənzər halqalar şəklində görünür. Lakin kirpik qaynağı zamanı istifadə olunan yapışdırıcının təbii kirpiklərin dibinə tətbiq edilməsi həmin nahiyənin müayinəsini və gənələrin aşkar edilməsini çətinləşdirə bilər.

Mütəxəssislər "gigiyena şərtdir" deyir

Araşdırmanın rəhbəri doktor Tetiana Zhmud əldə olunan nəticələrin kirpik qaynağı prosedurundan istifadə edən şəxslərin göz ətrafının gigiyenasına daha ciddi diqqət yetirməli olduğunu göstərdiyini bildirib. Xüsusilə qaşınma, qızartı, şişkinlik, qabıqlanma, qıcıqlanma və ya bulanıq görmə kimi əlamətlər yaranarsa, təcili göz həkiminə müraciət etmək lazımdır. Kirpik qaynağından istifadə edən qadınlara göz qapaqlarını gündə iki dəfə göz ətrafı üçün nəzərdə tutulmuş yumşaq təmizləyici vasitə və kirpik fırçası ilə ehtiyatla təmizləmək məsləhət görülür.

Lalə Mehralı

Azərbaycan Respublikası Media və Yayım Şurası

Yazı Azərbaycan Respublikasının Media və Yayım Şurasının maliyyə dəstəyi ilə "uşaq və gənclərin fiziki və mənəvi inkişafı" istiqaməti çərçivəsində hazırlanıb

Azərbaycanın Mərkəzi Asiya ilə strateji tərəfdaşlığı: yeni əməkdaşlıq mərhələsi

İradə Rizazadə,
Binəqədi Rayon İcra Hakimiyyəti yanında İctimai Şuranın sədri, Tərəqqi medalı təltifçisi

Müasir beynəlxalq münasibətlər sistemində geosiyasi proseslərin sürətlə dəyişdiyi, yeni əməkdaşlıq formatlarının meydana gəldiyi bir dövrdə dövlətlər arasında qarşılıqlı etimad və strateji tərəfdaşlıq münasibətlərinin möhkəmləndirilməsi xüsusi əhəmiyyət daşıyır. Bu baxımdan Azərbaycan ilə Mərkəzi Asiya dövlətləri arasında son illərdə formalaşan və dinamik şəkildə inkişaf edən əməkdaşlıq münasibətləri diqqətçəkən nümunələrdən biridir. Tarixi, mədəni və mənəvi yaxınlıqla yanaşı, qarşılıqlı siyasi iradəyə əsaslanan bu əlaqələr artıq yalnız ikitərəfli münasibətlər çərçivəsində deyil, regional və beynəlxalq əhəmiyyət daşıyan geniş əməkdaşlıq platforması kimi xarakterizə olunur.Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkmənistanın Türkmənbaşı şəhərində keçirilən Azərbaycan və Mərkəzi Asiya Dövlət Başçılarının 8-ci Məşvərət görüşündə çıxışı bu münasibətlərin hazırkı vəziyyətini və gələcək inkişaf istiqamətlərini aydın şəkildə ortaya qoymuşdur. Dövlətimizin başçısının çıxışında Azərbaycanın Mərkəzi Asiya Dövlət Başçıları Məşvərət formatında tamhüquqlu üzv kimi iştirakının tarixi əhəmiyyəti xüsusi vurğulanmışdır. Azərbaycanın bu formata tamhüquqlu üzv qəbul edilməsi ölkəmizin region dövlətləri ilə münasibətlərinin yeni mərhələyə qədəm qoyduğunu göstərməklə yanaşı, Azərbaycanın Mərkəzi Asiya ilə əməkdaşlığının regional proseslərdəki çəkisinin artmasının da mühüm göstəricisidir. Azərbaycanın bu əməkdaşlıq formatında iştirakı təsadüfi deyil. Son illərdə ölkəmizin Mərkəzi Asiya dövlətləri ilə siyasi dialoqu davamlı şəkildə genişlənmiş, qarşılıqlı səfərlər intensiv xarakter almış, iqtisadi-ticari əlaqələr yeni məzmun qazanmışdır. Bu proses qarşılıqlı etimada, dostluğa və ümumi maraqlara əsaslanan münasibətlərin daha da dərinləşdirilməsinə xidmət edir.

Azərbaycan-Türkmənistan münasibətlərinin dinamik inkişafı da bu baxımdan xüsusi qeyd edilməlidir. Ən yüksək səviyyədə həyata keçirilən qarşılıqlı səfərlərin intensivliyi iki ölkə arasında siyasi dialoqun yüksək səviyyədə olduğunu göstərir. Bu münasibətlər yalnız siyasi əlaqələrlə məhdudlaşmır, xalqlarımızın tarixi və mənəvi yaxınlığını əks etdirən mühüm layihələrlə də zənginləşir. Füzuli şəhərində Türkmənistan tərəfindən məscidin inşa edilməsi iki qardaş xalq arasındakı dostluğun və mənəvi bağlılığın mühüm nümunələrindən biri kimi qiymətləndirilə bilər. Bu layihə həm də Azərbaycanın işğaldan azad edilmiş ərazilərinin bərpasına göstərilən qardaş dəstəyinin təzahürüdür. Azərbaycanın Mərkəzi Asiya dövlətləri ilə münasibətlərində işğaldan azad edilmiş ərazilərin bərpası istiqamətində göstərilən dəstək xüsusi yer tutur. Özbəkistanın Füzuli şəhərində Mirzə Uluqbəy adına məktəb, Qazaxıstanın Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzi və Qırğızıstanın Ağdam şəhərində Manas adına məktəb inşa etməsi dost və qardaş ölkələrin Azərbaycanın ərazi bütövlüyünün bərpasından sonra həyata keçirilən genişmiqyaslı quruculuq prosesinə verdiyi töhfənin konkret nümunələridir. Bu layihələr təkcə sosial və təhsil infrastrukturu baxımından deyil, xalqlar arasında tarixi-mədəni bağların möhkəmləndirilməsi baxımından da mühüm əhəmiyyət daşıyır.

Bu gün Azərbaycanla Mərkəzi Asiya ölkələri arasında əməkdaşlığın mühüm istiqamətlərindən biri iqtisadi-ticari əlaqələrdir. Siyasi münasibətlərin yüksək səviyyəsi iqtisadi əməkdaşlığın genişlənməsi üçün əlverişli zəmin formalaşdırmışdır. Qarşılıqlı yüksək səviyyəli səfərlərin müntəzəm xarakter alması, ticarət dövriyyəsinin artması, qarşılıqlı investisiyaların genişlənməsi və birgə layihələrin həyata keçirilməsi bu münasibətlərin artıq strateji xarakter aldığını göstərir. Ötən il Azərbaycanın Mərkəzi Asiya ölkələri ilə ticarət dövriyyəsinin 50 faizdən çox artması iqtisadi əlaqələrin inkişaf dinamikasını aydın şəkildə nümayiş etdirir. Eyni zamanda, Azərbaycanda Mərkəzi Asiya ölkələrinin kapitalı ilə 400-dən çox şirkətin fəaliyyət göstərməsi qarşılıqlı iqtisadi maraqların genişliyini və investisiya əməkdaşlığının artan potensialını göstərir. Bu göstəricilər qarşılıqlı əlaqələrin yalnız siyasi bəyanatlar səviyyəsində qalmadığını, real iqtisadi nəticələrlə müşayiət olunduğunu təsdiqləyir. İqtisadi əməkdaşlığın növbəti mərhələsində əsas məqsəd yalnız qarşılıqlı ticarət dövriyyəsinin artırılması deyil, eyni zamanda birgə investisiyaların həyata keçirilməsi, yeni istehsal müəssisələrinin yaradılması və məhsulların xarici bazarlara çıxarılmasıdır. Azərbaycan tərəfindən Qazaxıstan, Özbəkistan və Qırğızıstanla birgə investisiya fondlarının yaradılması bu istiqamətdə mühüm addım kimi qiymətləndirilə bilər. Hər bir fondun kapitalının yüz milyonlarla dollar təşkil etməsi gələcəkdə iri layihələrin maliyyələşdirilməsi, sənaye kooperasiyasının genişləndirilməsi və yeni istehsal imkanlarının yaradılması üçün əhəmiyyətli baza formalaşdırır.

Azərbaycanın Mərkəzi Asiya ilə əməkdaşlığında nəqliyyat-kommunikasiya sahəsi isə xüsusi strateji əhəmiyyət daşıyır. Xəzər dənizi bu baxımdan Azərbaycanla Mərkəzi Asiya dövlətlərini birləşdirən mühüm nəqliyyat məkanı olmaqla yanaşı, regionun beynəlxalq bazarlara çıxışında əsas bağlantı xəttlərindən biri kimi çıxış edir. Azərbaycan son illərdə limanların, hava limanlarının, dəmir yollarının və avtomobil yollarının inkişafına böyük investisiyalar yatıraraq ölkənin tranzit imkanlarını əhəmiyyətli dərəcədə genişləndirmişdir. Bu infrastruktur imkanları Mərkəzi Asiyanın Avropa və digər beynəlxalq bazarlarla əlaqələrinin inkişafına mühüm töhfə verir. Bununla yanaşı, əməkdaşlığın perspektiv istiqamətlərindən biri bərpaolunan enerji mənbələrindən istifadənin genişləndirilməsidir. Azərbaycan, Qazaxıstan və Özbəkistan arasında yaşıl enerji dəhlizinin yaradılması istiqamətində aparılan işlər regionun enerji potensialından daha səmərəli istifadə etməyə imkan verə bilər. Bu layihələr yalnız enerji təhlükəsizliyi baxımından deyil, eyni zamanda yaşıl iqtisadiyyata keçid, enerji sistemlərinin şaxələndirilməsi və gələcək nəsillər üçün dayanıqlı inkişaf mühitinin formalaşdırılması baxımından da mühüm əhəmiyyət daşıyır.

Azərbaycanın Mərkəzi Asiya ilə əməkdaşlığının əhəmiyyəti sadalanan iqtisadi, nəqliyyat və energetika layihələri ilə məhdudlaşmır. Bu münasibətlərin əsasını siyasi sabitlik, qarşılıqlı etimad, təhlükəsizlik və dövlətlərin bir-birinin milli maraqlarına hörmətlə yanaşması təşkil edir. Prezident İlham Əliyevin çıxışında da vurğulandığı kimi, sülh, təhlükəsizlik, siyasi və iqtisadi sabitlik əldə olunan nailiyyətlərin əsasını təşkil edir. Məhz bu amillər regional əməkdaşlığın davamlı xarakter alması və gələcəkdə daha geniş layihələrin həyata keçirilməsi üçün fundamental zəmin yaradır.

Bu gün Azərbaycan-Mərkəzi Asiya münasibətləri yeni keyfiyyət mərhələsinə daxil olmuşdur. Tarixi və mədəni yaxınlıq üzərində formalaşmış münasibətlər artıq konkret siyasi, iqtisadi və infrastruktur layihələri ilə daha da möhkəmlənir. Azərbaycanın Mərkəzi Asiya Dövlət Başçıları Məşvərət formatında tamhüquqlu iştirakı isə bu əməkdaşlığın institusional baxımdan da yeni mərhələyə keçdiyini göstərir.

Görüş çərçivəsində gündəmə gətirilən məsələlər Azərbaycanın Mərkəzi Asiya ilə münasibətlərə kompleks yanaşdığını nümayiş etdirir. Siyasi dialoqun möhkəmləndirilməsi, iqtisadi və investisiya əməkdaşlığının genişləndirilməsi, nəqliyyat dəhlizlərinin inkişaf etdirilməsi, enerji resurslarının səmərəli şəkildə beynəlxalq bazarlara çıxarılması, yaşıl enerji layihələrinin həyata keçirilməsi və rəqəmsal bağlantıların gücləndirilməsi vahid strateji məqsədə - regionda davamlı və qarşılıqlı faydalı əməkdaşlıq məkanının formalaşdırılmasına xidmət edir.

Nəticə etibarilə, Azərbaycan ilə Mərkəzi Asiya dövlətləri arasında münasibətlərin inkişafı həm ölkəmizin regional mövqeyinin möhkəmlənməsi, həm də daha geniş Avrasiya məkanında yeni əməkdaşlıq imkanlarının yaranması baxımından mühüm əhəmiyyət kəsb edir. Azərbaycanın siyasi iradəsi, müasir nəqliyyat və enerji infrastrukturu, investisiya imkanları və beynəlxalq təşəbbüsləri Mərkəzi Asiya dövlətləri ilə qarşılıqlı əlaqələrin daha da dərinləşdirilməsi üçün geniş perspektivlər açır. Türkmənbaşı şəhərində keçirilən 8-ci Məşvərət görüşü bir daha göstərdi ki, Azərbaycan və Mərkəzi Asiya dövlətləri arasında münasibətlər qarşılıqlı etimad və strateji maraqlar üzərində qurularaq yeni mərhələyə yüksəlir. Bu əməkdaşlığın qarşıdakı dövrdə daha da genişlənməsi regionun iqtisadi inkişafına, nəqliyyat və enerji əlaqələrinin möhkəmlənməsinə, xalqlar arasında tarixi və mədəni bağların daha da güclənməsinə mühüm töhfə verəcəkdir. Azərbaycanın bu prosesdə fəal və təşəbbüskar mövqeyi isə ölkəmizin regionda artan rolunun və beynəlxalq əməkdaşlıq imkanlarının daha bir göstəricisidir.

SON SƏHİFƏ səs
13 oktyabr
2026-cı il

Uşaqlar uşaqlığını sosial şəbəkələrdə yaşayır: valideynlər hansı təhlükəni nəzərdən qaçırırlar?

Bu gün sosial şəbəkələrdə övladlarının ilk addımlarını, ad günlərini, gündəlik oyunlarını, məktəbə getdikləri ilk günü və hətta ən şəxsi anlarını paylaşan valideynlərə tez-tez rast gəlirik. Bəziləri bunu ailə xatirələrini qorumaq, bəziləri yaxınları ilə sevincini bölüşmək, digərləri isə izləyiciləri ilə gündəlik həyatını paylaşmaq üçün edir. Lakin valideynlərin xoş niyyətlə etdiyi bu paylaşımlar uşaqların gələcəkdəki şəxsi həyatına, təhlükəsizliyinə və rəqəmsal kimliyinə necə təsir göstərə bilər?

SİA mövzu ilə bağlı araşdırma edib.

Müasir dövrdə uşağın rəqəmsal izi çox vaxt onun özünün sosial şəbəkədən istifadə etməsindən xeyli əvvəl yaranır. Valideyn uşağın doğulduğu gündən başlayaraq onun şəkillərini, videolarını, adını, yaşını və gündəlik həyatına dair məlumatları internetdə paylaşa bilər. Uşaq isə bu qərarın nəticələrini dərk etmək, razılıq vermək və ya həmin məlumatların gələcəkdə necə istifadə olunacağını qiymətləndirmək imkanına malik deyil. Məhz bu məsələ beynəlxalq müzakirələrdə "sharenting" anlayışı ilə ifadə olunur. Termin valideynlərin övladları haqqında foto, video və digər məlumatları internetdə paylaşmasını nəzərdə tutur. UNICEF-in valideynlər üçün hazırladığı materiallarda da bu davranışın uşaqların şəxsi həyatına və təhlükəsizliyinə təsirləri diqqətə çatdırılır. Təşkilat vurğulayır ki, uşaqlar haqqında onlarla razılaşdırılmadan məlumat paylaşılması onların şəxsi sərhədlərinə hörmət və razılıq anlayışının formalaşmasına da təsir edə bilər.

Bir foto ilə hansı məlumatlar yayıla bilər?

Valideyn üçün uşağının məktəb formasında çəkilmiş fotosu, ad günü videosu və ya parkda oynadığı görüntü adi ailə xatirəsi sayıla bilər. Ancaq həmin paylaşımda uşağın adı, təhsil aldığı məktəbin nişanı, yaşadığı ərazi, tez-tez getdiyi məkanlar və gündəlik vərdişləri haqqında məlumatlar da görünə bilər.

Bu məlumatların hər biri ayrılıqda əhəmiyyətsiz görünə bilər. Lakin müxtəlif paylaşımlar bir araya gətirildikdə uşağın gündəlik həyatı haqqında daha geniş təsəvvür yarana bilər. Profilin açıq olması və paylaşımların geniş auditoriyaya çatması isə həmin məlumatlara kimin baxa biləcəyinə nəzarəti çətinləşdirir.

Digər mühüm məqam paylaşılmış görüntülərin sonradan valideynin nəzarətindən çıxmasıdır. Foto və videolar başqa hesablar tərəfindən götürülə, yenidən yayıla və ilkin paylaşımın kontekstindən fərqli şəkildə istifadə oluna bilər. Paylaşımın silinməsi də onun bütün nüsxələrinin internetdən yox olması demək deyil.

Süni intellekt dövründə uşaqların fotoları daha həssas məsələyə çevrilir

Süni intellekt texnologiyalarının inkişafı uşaqların internetdəki görüntülərinin qorunması məsələsini daha da aktuallaşdırır. Müasir alətlər vasitəsilə foto və videolar dəyişdirilə, görüntülər fərqli kontekstdə təqdim oluna və insanın iştirakı olmadan saxta materiallar hazırlana bilər. Belə şəraitdə uşağın adi fotosunun hansı məqsədlə istifadə ediləcəyini əvvəlcədən müəyyənləşdirmək həmişə mümkün deyil. Xüsusilə uşaqların şəxsi və həssas anlarını əks etdirən görüntülərin açıq profillərdə paylaşılması əlavə risk yaradır. Burada valideynlərin diqqət etməli olduğu əsas məsələ təkcə fotonun kimlər tərəfindən görülməsi deyil, həm də həmin görüntünün gələcəkdə hansı formada istifadə oluna bilməsidir. Uşağın çimərlik geyimində, yarıçılpaq vəziyyətdə və ya onu utandıra biləcək məqamlarda çəkilmiş görüntülərinin paylaşılmasından çəkinmək xüsusilə vacibdir.

Fransanın şəxsi məlumatların qorunmasına cavabdeh qurumu CNIL 2025-ci il noyabrın 28-də dərc etdiyi materialda uşaqların sosial şəbəkələrdəki foto və videolarının paylaşılması ilə bağlı risklərə diqqət çəkib. Qurum xüsusilə açıq profillərdə uşaqların görüntülərinin paylaşılmasına qarşı ehtiyatlı yanaşma tövsiyə edir. Bu yanaşma valideynlərin uşaqlarının heç bir fotosunu paylaşmamalı olduğu anlamına gəlmir. Əsas məsələ paylaşımın məzmununu, auditoriyasını və mümkün nəticələrini nəzərə almaqdır.

Uşaq böyüyəndə həmin fotoları görmək istəməsə necə?

Məsələnin daha az diqqət yetirilən tərəfi uşağın gələcəkdə özünün necə görünmək istəməsi və hansı məlumatlarının ictimaiyyətə açıq olmasına razılıq verməsidir. Valideyn bu gün övladının gülməli videosunu paylaşaraq çoxsaylı bəyənmələr qazana bilər. Ancaq həmin uşaq bir neçə il sonra bu görüntülərin sinif yoldaşları, dostları və ya daha geniş auditoriya tərəfindən görülməsini istəməyə bilər.

Uşağın körpəlikdə və ya erkən yaşlarında öz görüntülərinin internetdə yayılmasına münasibətini ifadə etmək imkanı məhdud olur. Buna görə də valideynin qərarı uşağın gələcəkdəki istəyini də nəzərə almalıdır. UNICEF-in yanaşmasında uşaqların yaşına və inkişaf səviyyəsinə uyğun şəkildə paylaşım qərarlarına cəlb olunması mühüm yer tutur. Uşaq böyüdükcə ondan fotosunun paylaşılmasına münasibətini soruşmaq, istəmədiyi görüntüləri yayımlamamaq və əvvəlki paylaşımları onunla birlikdə nəzərdən keçirmək olar. Bu, yalnız təhlükəsizlik məsələsi deyil. Eyni zamanda uşağa şəxsi sərhədlərini qorumağı, başqalarının razılığına hörmət etməyi və rəqəmsal mühitdə məsuliyyətli davranmağı öyrətmək üsuludur.

Bəs Azərbaycanda vəziyyət necədir?

Azərbaycanda da uşaqların şəkil və videolarının sosial şəbəkələrdə paylaşılması geniş yayılmış davranışlardan biridir. Lakin bu mövzuya yalnız valideynlərin şəxsi seçimi kimi yanaşmaq düzgün olmazdı. Burada uşağın şəxsi həyatının qorunması, fərdi məlumatların təhlükəsizliyi və rəqəmsal mühitdə məsuliyyət məsələləri də var. Azərbaycanın "Fərdi məlumatlar haqqında" Qanunu şəxsin kimliyini birbaşa və ya dolayısı ilə müəyyənləşdirməyə imkan verən məlumatları fərdi məlumatlar kimi müəyyən edir. Qanun fərdi məlumatların toplanması, işlənməsi və mühafizəsi ilə bağlı münasibətləri, o cümlədən şəxsi və ailə həyatının sirrinin qorunmasını tənzimləyir. Qanunun 4-cü maddəsində fərdi məlumatlarla bağlı proseslərdə insanın şərəf və ləyaqətinin alçaldılmasına yol verilməməsi prinsipi də əksini tapır. Bununla yanaşı, qanunun 3.3-cü maddəsi fiziki şəxslərin fərdi məlumatları müstəsna olaraq şəxsi və ailə ehtiyacları üçün toplamasına və işləməsinə dair istisna müəyyən edir.

Dünya təcrübəsi nə göstərir?

Uşaqların görüntülərinin qorunması bəzi ölkələrdə artıq hüquqi müstəvidə də müzakirə olunur. Məsələn, Fransada 2024-cü il fevralın 19-da qəbul edilmiş qanun uşaqların təsvir hüququnun qorunmasını gücləndirib. Qanuna əsasən, valideynlər azyaşlı uşağın təsvir hüququnu onun şəxsi həyatına hörmət çərçivəsində birgə qorumalı, uşağı isə yaşına və yetkinlik səviyyəsinə uyğun olaraq bu prosesə cəlb etməlidirlər. Valideynlər arasında fikir ayrılığı yarandıqda məhkəmə uşağın görüntülərinin paylaşılmasına məhdudiyyət qoya bilər.

Fransanın CNIL qurumu da uşaqların görüntülərinin paylaşılması ilə bağlı valideynlərə ehtiyatlı davranmağı tövsiyə edir. Qurumun 2025-ci ildə yayımladığı materialda 2023-cü ildə aparılmış araşdırmaya istinadən fransalı valideynlərin 53 faizinin övladları haqqında sosial şəbəkələrdə məzmun paylaşdığı bildirilir. Bu rəqəm Fransa ilə bağlıdır və Azərbaycan ailələri üçün göstərici kimi təqdim edilə bilməz. Lakin uşaqların internetdəki görüntülərinin qorunmasının başqa ölkələrdə də ciddi ictimai müzakirə mövzusu olduğunu göstərir.

Uşaqların görüntüləri üzərindən qazanc əldə etmək nə dərəcədə doğrudur?

Mövzunun digər tərəfi uşaqların sosial şəbəkə kontentinə çevrilməsidir. Bəzi ailə hesablarında uşaqların gündəlik həyatı davamlı şəkildə çəkilir, onların emosional reaksiyaları, şəxsi anları və ailədaxili münasibətləri izləyicilərə təqdim olunur. Belə hesabların hamısının kommersiya məqsədi daşıdığını demək olmaz. Bununla belə, uşağın görüntüləri reklam və digər kommersiya fəaliyyətləri vasitəsilə gəlir əldə edilməsinə xidmət etdikdə əlavə suallar yaranır: uşağın mənafeyi necə qorunur, onun şəxsi həyatına nə qədər hörmət edilir və gələcəkdə bu fəaliyyətdən əldə olunan qazanc üzərində hansı hüquqları olacaq?

Uşaq özünün hansı görüntülərinin paylaşılmasına, nə qədər tez-tez çəkilməsinə və bunun ailənin gəlirinə necə təsir etdiyinə dair qərarları tam şəkildə qiymətləndirə bilməyə bilər. Bu səbəbdən valideynlərin kommersiya maraqları ilə uşağın mənafeyi arasında balansın qorunması vacibdir. Burada əsas prinsip uşağın yalnız izləyici toplamaq və gəlir əldə etmək vasitəsinə çevrilməməsidir. Uşağın istirahət, təhsil, oyun və şəxsi həyat hüquqları sosial şəbəkə fəaliyyətindən üstün tutulmalıdır.

Valideynlər nə etməlidir?

Uşaqların rəqəmsal təhlükəsizliyini qorumaq üçün ailələrin gündəlik davranışlarında bir neçə sadə prinsipə əməl etməsi mümkündür. İlk növbədə, hər foto və videonun paylaşılmasının zəruri olub-olmadığı düşünülməlidir. Ailə xatirələrini qorumaq üçün bütün görüntüləri açıq sosial şəbəkələrdə yayımlamaq məcburi deyil. Bəzi materialları şəxsi arxivdə saxlamaq və yalnız etibar edilən insanlarla bölüşmək mümkündür.

İkinci, uşağın şəxsi məlumatlarını açıqlayan görüntülərdən çəkinmək lazımdır. Məktəbin adı, gündəlik marşrut, evin ünvanını müəyyənləşdirməyə imkan verən detallar və digər həssas məlumatlar paylaşılmamalıdır.

Üçüncü, uşağın ləyaqətinə və gələcəkdə həmin görüntüyə münasibətinə diqqət yetirilməlidir. Onu utandıra biləcək, ağladığı və ya çətin vəziyyətdə olduğu anları əks etdirən videoların paylaşılmasından çəkinmək daha məqsədəuyğundur.

Dördüncü, hesabın məxfilik parametrləri nəzərdən keçirilməlidir. Bununla belə, hesabı yalnız tanışların görə bilməsi də tam təhlükəsizlik zəmanəti vermir. Paylaşımın ekran görüntüsü götürülə və başqa şəxslərə ötürülə bilər. Nəhayət, uşaqlar böyüdükcə onların fikirlərinə hörmət etmək, əvvəllər paylaşılmış materialları vaxtaşırı nəzərdən keçirmək və artıq paylaşılmasını istəmədikləri görüntüləri silmək məsələsini müzakirə etmək lazımdır.

Əsas sual: valideynin paylaşmaq hüququ uşağın şəxsi həyatından üstün ola bilərmi?

Uşaqların sosial şəbəkələrdə paylaşılması məsələsində məqsəd valideynləri günahlandırmaq və ya ailələrin sevincli anlarını bölüşməsinə qarşı çıxmaq deyil. Problem paylaşımın sərhədlərinin harada başladığı və bitdiyi ilə bağlıdır. Valideyn övladının həyatında baş verənləri yaxınları ilə bölüşmək istəyə bilər. Ancaq uşağın görüntülərinin internetdə uzun müddət qalması, başqa məqsədlərlə istifadə olunması və gələcəkdə onun özünə narahatlıq yaratması ehtimalı da nəzərə alınmalıdır. Rəqəmsal dünyada uşağın həyatına aid məlumatlar onun öz qərarından əvvəl internetə daxil ola bilir. Buna görə də valideynlərin məsuliyyəti yalnız uşağı real həyatda qorumaqla bitmir. Onlar uşağın rəqəmsal izinin formalaşmasına da diqqətlə yanaşmalıdırlar. Ən vacib məqam budur: uşağın fotosunu paylaşmazdan əvvəl valideyn yalnız bu gün neçə nəfərin həmin görüntünü bəyənəcəyini deyil, övladının illər sonra həmin paylaşımı necə qarşılayacağını da düşünməlidir.

Ayşən Vəli

Baş redaktor:
Bəhruz Quliyev

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyli
küçəsi, 66.**
Şəhadətnamə:№ 022492
sesmediaqrup@gmail.com
sesqazeti@gmail.com
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet həftədə iki dəfə nəşr olunur

Tiraj: 2000